**UOT 94 (479.24)**

***Emin Şıxəliyev***
***Tarix elmləri doktoru, dosent***
***AMEA Naxçıvan Bölməsi***
***emin.amea@yahoo.com***

# İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ RUSİYA FEDERASİYASININ MÖVQEYİ

***Xülasə***

*Təxminən 30 ilə yaxın idi ki, öz həllini tapmayan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin gələcəyi ilə bağlı qeyri-müəyyən bir vəziyyət yaranmışdı. ATƏT-in Minsk Qrupunun təşəbbüsü ilə problemin həllinə dair səylər sürətləndirilsə də, 26 il davam edən sülh müzakirələri gözləntiləri doğrultmamış və nəticəsiz qalmışdır. Problemin həll edilə bilməməsində başlıca amil Rusiya faktoru idi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Rusiyanın geosiyasi prioritetləri və maraqları baxımından xüsusi əhəmiyyət kəsb edirdi. Rusiya uzun müddət Cənubi Qafqazda və Azərbaycanda sabitliyin pozulmasına çalışmış və dolayısı ilə Ermənistanı dəstəkləmişdir. Halbuki ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olaraq bu dövlətin əsas vəzifəsi tərəflər arasında qalıcı və ədalətli sülhü təmin etmək idi. Qeyd edilməsi vacib olan məsələlərdən biri budur ki, ATƏT-in Minsk Qrupunun həmsədrlərindən biri olaraq Rusiya özünü bu münaqişə orbitinə cəlb etdirməklə problemin açarının bilavasitə özündə olduğunu bəyan etmişdi. Şübhəsiz ki, Azərbaycan torpaqlarının 20%-nin Ermənistan tərəfindən işğalının davam etməsi müharibə ehtimalını artırmaqdaydı. Ermənistanın növbəti təxribatçı fəaliyyətləri ani müharibənin baş verməsinə səbəb oldu. Özünü Rusiyanın Cənubi Qafqazdakı geosiyasi maraqlarının icraçısı olaraq görən və daim dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozdu. Ermənistanın Baş naziri Nikol Paşinyanın "Qarabağ Ermənistandır və nöqtə" kimi özündən razı və beynəlxalq hüquqa zidd olan rəsmi bəyanat səsləndirməsi, eyni zamanda yeni macəra həvəsiylə atdığı yanlış addımlar Azərbaycan baxımından gözlənən strateji məqamın xəbərçisinə çevrildi. Nəticədə Azərbaycan qanuni özünümüdafiə hüququna əsaslanaraq işğal altındakı topraqlarını xilas etdi. Məqalədə İkinci Qarabağ müharibəsində Rusiya Federasiyasının rolu və mövqeyi analitik süzgəcdən keçirilmişdir.*

***Açar sözlər:*** *İkinci Qarabağ müharibəsi, Rusiya Federasiyası, geosiyasi həmlələr, Ermənistan, Azərbaycan, Şuşa Bəyannaməsi.*

## *Giriş*

Ümumiyyətlə, qlobal geosiyasi məsələlərin təsiri işığında Cənubi Qafqazda, xüsusilə Ermənistanla Azərbaycan arasında cərəyan etmiş hadisələrin təhlili olduqca böyük elmi, siyasi aktuallıq kəsb edir. Təxminən 30 ilə yaxın idi ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi öz siyasi, hüquqi həllini tapmır və ya buna mane olunurdu. Atəşkəs haqqında razılıq əldə edildiyi tarixdən, yəni 1994-cü ildən etibarən hər iki ölkədə qarşı tərəfə münasibətdə "düşmən" obrazı möhkəm yer aldığına və tə-

rəflər arasında "nə sülh, nə də müharibə" kimi qeyri-müəyyən vəziyyətin yarandığına görə, problemin beynəlxalq hüquq normaları çərçivəsində həlli tələb edilməkdəydi. Dünyanın aparıcı dövlətləri bu münaqişəyə münasibətdə müxtəlif mövqelərdə dayandıqlarına görə bu variant da real nəticə verməmişdir. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Rusiyanın geosiyasi maraqları kontekstində özünəməxsus yeri vardır. Bu problemi Rusiyasız təsəvvür etmək mümkün deyil. Vaxtilə politoloq Vəfa Quluzadə qeyd edirdi ki, Azərbaycan xalqını əsir etmiş problemin kökünə nəzər yetirilsə, aydın görünər ki, xalqımız dünya hökmranlığı yolunda rus milli ideologiyasının qurbanıdır. Ermənilər isə yalnız onun gerçəkləşdirmə alətlərindən biridir. "Böyük Ermənistan"ın yaradılması ideyası və qondarma "tarixi ərazilər"in qaytarılması uğrunda separatçı hərəkat məhz bu məqsədə xidmət edir (9, s. 101). Həqiqətən də danılmaz faktdır ki, Rusiya ənənəvi olaraq Ermənistanı hər vasitə ilə dəstəkləmişdir, bu gün də dəstəkləməyə davam edir. Halbuki ATƏT-in Minsk qrupunun həmsədri kimi onun əsas vəzifəsi, bu iki qonşu dövlət, yəni Ermənistan və Azərbaycan arasında sülhün bərqərar olmasına köməklik göstərməkdir. Rusiyanın əks mövqedə dayanması onun sülh missiyasını həyata keçirmək istəməməsi ilə izah oluna bilər. Şübhəsiz ki, münaqişəni özü yaradan dövlət öz tələblərini reallaşdırmadan heç bir şəkildə problemin nizama salınmasında maraqlı ola bilməz. Qeyd etmək lazımdır ki, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri kimi Rusiya münaqişə orbitinə təsadüfən cəlb olunmamışdır. Rusiya özünü bu orbitə cəlb etdirməklə münaqişənin açarının bilavasitə öz əlində olduğunu bir daha bəyan etmişdir. Ermənistan da özünü Qafqazda Rusiyanın geosiyasi əməliyyat meydanı olaraq görür və onun icraçısı hesab edirdi. Daha doğrusu, rus hərbi qüvvələri Azərbaycandan çıxarıldığı və Gürcüstana etimadı qalmadığı üçün Ermənistan Rusiyanın maraqları və məqsədləri yolunda yeganə icraçıya çevrilmişdi. O, Rusiyanı öz milli təhlükəsizlik konsepsiyasının əsas iştirakçılarından biri kimi görürdü.

"Erməni" amili siyasi olmaqla yanaşı, Rusiyanın iqtisadi baxımdan da həm Azərbaycana, həm də Gürcüstana qarşı təzyiq vasitəsi olmuşdur. Hər şeydən əvvəl ona görə ki, Rusiya həm Azərbaycanın, həm də Gürcüstanın müstəqilliyini və onların beynəlxalq enerji layihələrində iştirakını həzm edə bilməmişdir. Rusiya həm Azərbaycanda, həm də Gürcüstanda ciddi etnik və siyasi sarsıntılara zəmin hazırlayaraq, enerji layihələrinin gerçəkləşməsinə mane olmağa çalışmışdır. Bunu həyata keçirmək və nəzarəti əldən verməmək üçün o, hər iki bölgədəki separatçı qüvvələri dəstəkləmiş və Ermənistanda öz hərbi bazalarını yerləşdirmişdir. Rusiya bu vasitə ilə Ermənistandan ABŞ, NATO və Avropa İttifaqının Qafqaz siyasətinə qarşı tarazlayıcı amil kimi istifadə etməyə çalışmış, bu dövlət sayəsində Qafqazdakı siyasi və hərbi varlığını mühafizə edərək, Azərbaycan və Gürcüstanı nəzarət altında tutmağa, yeri gəldikcə ermənilərdən yararlanaraq, etnik münaqişələr yarada bilmək imkanına sahib olmağa, özünün siyasi və iqtisadi maraqlarının qorunması istiqamətində Ermənistanı və erməniləri regional təhlükəsizliyi təhdid edən bir amilə çevirməyə çalışmış, böyük miqyasda buna nail də olmuşdur. Ermənistan isə Azərbaycandan və eyni zamanda Türkiyədən gələ biləcək hərbi müdaxilə təhdidləri qarşısında Rusiyanın hərbi dəstəyinə ehtiyac hiss etmişdir. 1991-ci ildən etibarən Rusiya ilə xüsusilə hərbi əməkdaşlığa əhəmiyyət verən Ermənistan həm milli ordu quruculuğunda, həm də Azərbaycan torpaqlarının işğal edilməsində Rusiyanın tam dəstəyini almışdır.

***Rusiyanın "böyük siyasət" reallığı, İkinci Qarabağ müharibəsində rolu və mövqeyi***

1990-cı illərdən günümüzə qədər Cənubi Qafqaz da daxil olmaqla əksər postsovet məkanında baş verən proseslər, eyni zamanda Rusiyanın geosiyasi prioritetləri təhlil edildiyində çox önəmli məqamlar ortaya çıxır: BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olan Rusiya ona qarşı çıxan və meydan oxuyan dövlətlərin ərazi bütövlüyünü pozmuş və ya təhdid etmişdir.

Avrasiyacı fikirləri ilə həmişə gündəmə gələn Rusiyanın məşhur strateqlərindən prof. dr. Aleksandr Duqin postsovet ölkələri ilə Rusiya arasındakı münasibətlərin perspektivlərini, Rusiyaya qarşı çıxan dövlətlərin aqibətini və gələcəyini belə dəyərləndirməkdədir: *"Hər hansı bir keçmiş sovet ölkəsinin ərazi bütövlüyünün təminatı Rusiya ilə münasibətləridir. Postsovet ölkələrindən hər hansı birinin Rusiya ilə münasibətləri yaxşıdırsa, onun ərazi bütövlüyü də təmin edilmiş olur. Əgər münasibətlər pisdirsə, o zaman o ölkə və ya ölkələrin ərazi bütövlüyü pozulur... Gürcüstan, Ukrayna, Moldova kimi Rusiya ilə pis münasibətlər quran ölkələrin hegemonluğu artıq pozulmuşdur"* (12).

Bu vəziyyət "güclü dövlət" və onun təmsil etdiyi "böyük siyasət" reallığını bir daha əks etdirir. Heç təsadüfi deyildir ki, sadəcə digər postsovet məkanlarında deyil, Cənubi Qafqaz, Ermənistan-Azərbaycan münasibətləri və Qarabağ müharibəsində də Rusiyanın "böyük siyasət" reallığı müşahidə edilir, öz aktuallığını günümüzdə də qoruyur. Reallıq bundan ibarətdir ki, əksər postsovet ölkələrində olduğu kimi, Cənubi Qafqazda da problem və münaqişələrin tamamilə həll edilməsi, regionda sülhün bərqərar olması Rusiyanın regional təhlükəsizlik siyasətinin uzunmüddətli maraqları ilə heç bir şəkildə uzlaşmır.

Ümumiyyətlə, Qarabağ problemin kökünə nəzər yetirilsə, aydın görünər ki, ermənilər Rusiyanın geosiyasi maraqlarının gerçəkləşdirilməsi və qorunub saxlanılmasında başlıca alətlərdən biridir. "Böyük Ermənistan" ideyasının və "qədim tarixi ərazilər" iddiasının reallaşdırılması uğrunda separatçı hərəkat da məhz bu məqsədə xidmət edir. Cənubi Qafqazda sabitliyin bərpa olunması, Ermənistan ilə Azərbaycan arasında cərəyan edən problemin öz real həllinə qovuşması Rusiya baxımından arzuedilən bir hal deyil. Rəsmi Moskvanın bu siyasətinin arxasında onun gələcəyə hesablanmış məqsədləri yatır: tərəfləri özündən asılı vəziyyətdə saxlamaq və regionda təsir rıçaqlarını qorumaq.

Qeyd etmək lazımdır ki, rəsmi Moskvanın uzun illərdir davam edən bu kimi addımları və ikili oyunları onun vasitəçi dövlət missiyası üçün qəbuledilməzdir. Rusiya bir tərəfdən münaqişə tərəfləri arasında vasitəçilik etməyi öz öhdəsinə götürmüş, digər tərəfdən də Ermənistanı güclü şəkildə silahlandırmış və bunu da ikili münasibətlər çərçivəsində davam etdirdiyini bildirməkdən çəkinməmişdir. Ümumiyyətlə, Ermənistan dövlətinin və Qarabağdakı separatçı qüvvələrin mövcudluğunu Rusiyanın Cənubi Qafqazdakı varlığının təminatı kimi xarakterizə etmək daha məqsədəuyğundur.

Biz bu məqalədə Dağlıq Qarabağ münaqişəsinə yenidən qayıtmaq niyyətində deyilik. Bu kimi məsələlərə əvvəlki tədqiqatlarımızda müfəssəl şəkildə yer vermişik. Sadəcə olaraq onu qeyd etmək istəyirik ki, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar prosesi ATƏT-in Minsk Qrupunun həmsədrləri olan Rusiya, ABŞ və Fransanın

nəzarəti altında idi. Münaqişənin həlli ilə bağlı onların hər birinin öz mövqeyi vardı ki, bu da danışıqlarda uğur əldə edilməsini çətinləşdirirdi. Aydındır ki, hər üç dövlət qlobal güc mərkəzlərini təmsil edir. Həmin ölkələrin təcavüzkara təzyiq etmək üçün geosiyasi nüfuza malik olduqları da qəbul edilən reallıqdır. Məsələ burasındadır ki, bu və ya digər münaqişələrin həlli istiqamətində əsas problem böyük dövlətlərin münaqişəni həll etmək bacarıqlarında yox, onların siyasi iradələrindədir. Minsk Qrupunda Dağlıq Qarabağ münaqişəsinin həllinə ciddi marağın olmamasının nəticəsi idi ki, qurum öz öhdəliklərini yerinə yetirmirdi. Minsk Qrupunun həmsədr ölkələri sırf münaqişənin gərginləşməsinin qarşısını almaq üçün regiona səfərlər ediblər. Beləliklə də onlar daha çox "münaqişənin həlli mexanizmləri"nin icrası ilə deyil, "münaqişənin idarə edilməsi" ilə məşğul olublar. Azərbaycan ictimaiyyətində də həmsədrlərin dəfələrlə regiona səfərləri haqlı olaraq "turist səfərləri" kimi qiymətləndirilib.

Həm beynəlxalq təşkilatların, həm ATƏT-in Minsk Qrupu üzvlərinin, həm də digər dövlətlərin yeritdikləri ikili standartlar siyasətinin nəticəsi idi ki, Ermənistan tərəfi problemin öz real həllinə yanaşmaq istəməmiş, üstəlik, atəşkəs rejimini də tez-tez pozmuşdur. Nəticədə 2-5 aprel 2016-cı il tarixində baş vermiş müharibə Qarabağ münaqişəsinin əslində dondurulmuş olmadığını ortaya qoydu. Düzdür, müəyyən səbəblərdən havadarlarının, xüsusilə də Rusiyanın müdaxilə etməsiylə vəziyyət əvvəlki məcrasına qayıtdı. Lakin Ermənistan vəziyyətin həmişə bu cür davam edəcəyini hesablayaraq, növbəti dəfə təxribatlara əl atmaqda davam etdi. Heç təsadüfi deyildir ki, Ermənistan yenə də havadarlarından ilham alaraq 2020-ci ilin iyul ayında növbəti təxribata əl atdı. Əlbəttə, bunun müəyyən səbəbləri var idi:

Əvvəla, Ermənistanın Tovuz istiqamətində sərhəddə təxribat törətməkdə əsas məqsədi ilk olaraq Baş nazir N.Paşinyanın təmas xəttindən diqqəti yayındırmağa çalışması olmuşdur.

İkincisi, həmin ərazilərdən Azərbaycanın beynəlxalq layihələri olan Bakı-Tiflis-Ceyhan əsas ixrac neft boru kəməri, Bakı-Tiflis-Ərzurum-Qars, Bakı-Tiflis-Qars və Böyük İpək yolu keçir. Ermənistan yüksəklikləri ələ keçirib öz istəyinə nail olmaq məqsədində idi.

Üçüncüsü, Ermənistan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvlərinin diqqətini tamamilə fərqli istiqamətə yönəltmək istəyirdi, amma bunların heç biri alınmadı.

Bu hücumların Rusiya və Fransa tərəfindən təhrik edildiyinə dair iddialar mövcuddur (10; 13). Amma bunu da nəzərdən qaçırmaq olmaz ki, Paşinyan hökuməti mütləq şəkildə böyük dövlətlərin dəstəyini hesaba qataraq və buna inanaraq "yeni müharibə və yeni torpaqlar" şüarından yola çıxmış və belə bir hücum reallaşdırmışdır. Daim böyük dövlətlər tərəfindən dəstəklənəcəyini ümid edən Ermənistan təmas xəttini pozmağa davam edir, psixoloji baxımdan Azərbaycana zərbə vurmağa çalışır və qıcıqlandırma metodlarından istifadə edirdi. Paşinyanın *"Qarabağ Ermənistandır. Nöqtə"* kimi özündən razı və beynəlxalq hüquqa zidd olan daha sərt bəyanatlar səsləndirməsi və yeni bir macəra həvəsiylə atdığı yanlış addımlar yeni müharibənin xəbərçisinə çevrildi. Halbuki Paşinyana qədərki Ermənistanın dövlət başçıları və rəsmiləri həmişə

münaqişənin əsas tərəfləri kimi Azərbaycan və Dağlıq Qarabağ olaraq dünyaya çatdırmaq istəyir və müharibənin Azərbaycanla Dağlıq Qarabağ arasında olduğunu irəli sürürdülər. Onlar guya Ermənistan tərəfinin danışıqlar prosesində konstruktiv olmaq istədiklərini bildirir, hətta dünya birliyinə Dağlıq Qarabağ ermənilərinin öz milli müqəddəratını təyin etməsini istədiklərini, heç bir ərazi iddialarının olmadığı kimi təqdim edirdilər. Lakin Paşinyanın *"Qarabağ Ermənistandır. Nöqtə"* bəyanatı belə demək mümkündürsə, Ermənistanın Dağlıq Qarabağ münaqişəsi ilə bağlı etiraf xarakterli işğalçı siyasətini ortaya qoydu. Ermənistan artıq bütün dünyaya özünün necə bir dövlət olduğunu tanıtdı.

27 sentyabr 2020-ci il tarixində Ermənistanın atəşkəsi pozaraq hücum "ani müharibə"nin başlanmasının işarəsi oldu. Qeyd etmək lazımdır ki, Azərbaycanda həm rəsmi səviyyədə, həm də xalqda artan torpaqların qaytarılması arzusu da bu işarənin xəbərçisi idi. Nəticədə Azərbaycan tərəfi əks-hücum gerçəkləşdirərək işğal altındakı tarixi torpaqları, strateji əraziləri və yüksəklikləri ələ keçirdi.

İşğalçı Ermənistana qarşı aparılan "Vətən müharibəsi"ndə böyük zəfərlər qazanan Azərbaycan Türkiyədən aldığı pilotsuz uçuş aparatları (PUA) və silahlı pilotsuz uşuş aparatları ilə Ermənistan ordusu qarşısında bariz üstünlüyünü nümayiş etdirdi.

Müharibədə Rusiya və Qərb dövlətlərinin, beynəlxalq təşkilatların müharibənin dayandırılması və dərhal müzakirələrə başlanmasının vacib olduğunun bildirilməsinə baxmayaraq, Türkiyə, Pakistan, Şimali Kipr, Ukrayna, İsrail və s. dövlətlər hər zaman Azərbaycanın yanında olduqlarını göstərdilər.

"Qarabağ Ermənistandır" deyən, Şuşada yallı oynayıb andiçmə mərasimlərində iştirak edən, işğal altındakı torpaqlarda məskunlaşma aparan və oraya terrorist qruplar yerləşdirən Paşinyanın məzlum vəziyyətə düşərək dünya liderlərindən imdad dilədiyini bütün dünya gördü.

### *Rusiyanın müdaxiləsi, Ermənistanın son anda xilası və geosiyasi həmlələr*

26 illik atəşkəsdən sonra siyasi konyunkturanın yaranması ilə Azərbaycanın Ermənistanın işğalı altında olan torpaqlarında irəliləməsi və nəzarəti ələ keçirdiyi bir zamanda regionda kilid rola sahib olan Rusiyanın mövqeyinin necə olacağı hər kəs tərəfindən düşündürücü idi. Heç təsadüfi deyildir ki, müəyyən vaxtlarda cərəyan edən toqquşmalarda və ya qısamüddətli müharibələrdə bir tərəfin üstünlüyü Rusiyanın ümumi siyasətinin xaricinə çıxmazsa, rəsmi Moskva bu cür toqquşmaya müvəqqəti olaraq səssiz qala bilir və ya öz varlığının əhəmiyyətini hiss etdirmək istəyərsə, buna icazə verirdi. 2016-cı ilin aprel ayında gerçəkləşən "Dördgünlük müharibə"də də bunu göstərdi. 27 sentyabrda başlayan şiddətli müharibənin 13-cü günündə isə Rusiya təkrar müdaxilə etməyə çalışaraq Ermənistan və Azərbaycanın xarici işlər nazirlərini Moskvaya dəvət etdi və tərəfləri atəşkəs barəsində uzlaşdırdı. Oktyabrın 10-da humanitar məqsədlərlə hərbi əsirlər, digər saxlanılan şəxslər və ölənlərin meyitlərinin dəyişdirilməsi ilə bağlı atəşkəs elan olundu (3). Cənubi Qafqazı öz "arxa baxça"sı olaraq dəyərləndirən Rusiya baxımından atəşkəsin təmin edilməsi olduqca vacib idi. Öz nüfuzunu ortaya qoyması və müharibədə vacib əhəmiyyətə sahib olduğunu bir daha

dünyaya göstərməsi lazım gəlirdi. Lakin atəşkəsin müvəqqəti xarakter daşıdığı onsuz da bəlli idi. Toplantının ardından 24 saat (və ya daha az) belə keçmədən Gəncə, Mingəçevir, Bərdə, Goranboy, Tərtər və s. şəhər, rayon və kəndlərə Ermənistan ərazisindən raketlər atıldı. Xüsusilə mülki əhalinin hədəf alındığı, çox sayda insanın öldüyü və yaralandığı ikinci böyük şəhər olan Gəncənin vurulması həm erməni terrorunun yeni bir təzahürü oldu, həm də Rusiyanın xarizmasını cızma məqsədli bir akt olduğunu ortaya qoydu. Bu hal Ermənistanın sivillərə terror cinayətləri törədəcək qədər zavallı bir vəziyyətə düşməsi şəklində də xarakterizə oluna bilər. Rəsmi Yerevanın yeganə ümidi rəsmi Bakının bu hücuma Ermənistan ərazisinə əks-hücumla cavab verməsiylə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının dərhal müdaxilə etməsinə fürsət yaratmaq olsa da, əslində rəsmi Moskvanın nüfuz və xarizmasına ciddi bir zərbə oldu.

Atəşkəsin pozulması məsələsi Ermənistanın amerikanpərəst mövqeyini ortaya qoydu. Buna baxmayaraq, Rusiyanın müttəfiqi kimi Ermənistan rəsmi Moskvanın rəqiblərinin dəstəklədiyi bir sima olan, Qərb və Soros tərəfindən dəstəklənən Paşinyan tərəfindən idarə olunsa da, Rusiyanın bu dövlətdən əl çəkməsi də mümkün görünmürdü. Sadəcə olaraq Paşinyanın "cəzalandırılması" lazım gəlirdi. Azərbaycan da 1990-cı illərdəki vəziyyətdə deyil, olduqca güclü bir orduya və silahlara sahibdir. Eyni zamanda münaqişə xarici işlər nazirləri çərçivəsində həll oluna biləcək bir problem olmayıb, daha geniş mahiyyətli bir məsələdir. Zatən Azərbaycan Ermənistanın atəşkəsi pozacağını hesab edərək masaya əyləşdi. Bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin də ifadəsi ilə desək, Azərbaycan tərəfindən Ermənistana verilən şans idi. Lakin buna baxmayaraq, Ermənistan atəşkəsi pozaraq sivillərə hücum etdi və işğal etdiyi torpaqları danışıqlar yolu ilə geri qaytarmayacağını göstərmiş oldu. ATƏT-in Minsk Qrupunun müdaxilə etməsi, xüsusilə də Fransanın vasitəçiliyi ilə tərəflər arasında 18 oktyabrda bir daha atəşkəs elan edildi, lakin üstündən 2 dəqiqə belə keçmədən Ermənistan ordusu tərəfindən pozuldu (4). Gərginliyin artmasından sonra bu dəfə ABŞ-ın dövlət katibi Mayk Pompeo da hər iki ölkənin xarici işlər nazirlərini öz ölkəsinə dəvət etdi və 23 oktyabrda nazirlərlə ayrı-ayrılıqda görüş keçirdi (11). Əlbəttə ki, ABŞ-ın da məsələyə müdaxilə edəcəyi əslində gözlənilən bir vəziyyət idi. Lakin bu görüşdən sonra 26 oktyabrda üçüncü dəfə atəşkəsin elan edilməsindən sonra üstündən 5 dəqiqə keçmədən Ermənistan tərəfindən bir daha pozuldu (6). Döyüş meydanında Azərbaycan Ordusu qarşısında müqavimət göstərə bilməyən Ermənistan yenə də mülki əhalini hədəf seçdi. Oktyabrın 28-də Ermənistan silahlı qüvvələrinin Bərdədə dinc əhaliyə qarşı "Smerç" tipli yaylım atəşli reaktiv sistemləri ilə raket zərbələri nəticəsində 21 nəfər həlak oldu, 70-dən çox mülki vətəndaş ağır yaralandı. Atəşkəsi dəfələrlə pozmasına baxmayaraq, ballistik raketlərlə sivillərə hücum edən, aralarında uşaqların da olduğu çox sayda insanları qətlə yetirən Ermənistanın törətdiyi cinayətlər ATƏT-in Minsk Qrupunun həmsədrləri, aparıcı dövlətlər və nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən qınanmadı. Bunun əvəzinə müharibənin dayandırılması, silahların susması, dərhal müzakirələrə başlanması kimi ənənəvi ifadələrə yer verildi. Əgər beynəlxalq təşkilatlar və dövlətlər həqiqətən müharibədən narahatdır idilərsə, insan ölümünə səbəb olan bu vəziyyətdən gərgin hisslər keçirirdi-

lərsə, ədalətin bərqərar olmasını istəyirdilərsə, işğalçı tərəf olan Ermənistanın BMT qətnamələrinə əməl edərək dərhal işğal etdiyi əraziləri boşaltmasını təmin etməli, lazım gələrsə təzyiq göstərməliydilər. Lakin bunu etmədilər. Ermənilərin təyini-müqəddəratı XX əsrin əvvəllərində gerçəkləşdirilib və onların Ermənistan adlı bir dövləti mövcuddur. Azərbaycan ərazisində ikinci bir erməni dövlətinin qurulması isə əsla mümkün deyil. Əgər ermənilər yaşadıqları hər yerdə təyini-müqəddərat məsələsini qəbul etdirməyə çalışsalar, o zaman dünyada çox sayda erməni dövləti yaranar. Əgər Minsk üçlüsü olan Rusiya, ABŞ və Fransa həqiqətən də Ermənistan üçün "self-determination" prinsipinin reallaşmasını istəyirlərsə, çox sayda ermənilərin yaşadıqları Krasnodar (Rusiya), Kaliforniya (ABŞ) və Marselə (Fransa) muxtariyyət statusu vermələri daha məqbul sayıla bilər.

Vasitəçilərin işğalçı dövlət ilə işğala məruz qalan dövlət arasında ədalətli seçim etməmələri və işğalçı dövləti dəstəkləyən addımları Ermənistanın təcavüzkar siyasətinin daha da şiddətlənməsi ilə nəticələndi. Ermənistanda iqtidara gələn hökumətlərin hansı meyilli olmaları (istər anti-Rusiya, istərsə də antiqərb) və yeritdikləri siyasətə baxmayaraq, Rusiya, Fransa və ABŞ-ın Ermənistandan vaz keçmələrindən söhbət gedə bilməz. Bu dövlətlərin fərqli coğrafi məkanlarda maraqları toqquşa bilər, lakin erməni məsələsi və türk düşmənçiliyi onları birləşdirən əsas amildir. Heç təsadüfi deyildir ki, hər üç vasitəçi dövlət bu məsələdə öz real münasibətlərini 19 oktyabr 2020-ci il tarixli BMT TŞ-nın münaqişə ilə bağlı gerçəkləşdirilən qapalı iclasında nümayiş etdirdi. Bu iclasdan sonra ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan Rusiya və Fransa tərəfindən bəyanatın layihəsi hazırlandı və razılaşdırılması üçün üzv ölkələr arasında yayıldı, lakin bəyanat layihəsində Təhlükəsizlik Şurasının məlum 4 qətnaməsinə istinad öz əksini tapmadı. Bu bəyanat beynəlxalq hüququn ən önəmli sütunlarından olan ərazi bütövlüyü prinsipinin və BMT Təhlükəsizlik Şurasının qərarlarının heçə sayılması mənasına gəlir. Əsl məqsəd 822, 853, 874 ve 884 saylı qərarları tarixə gömməklə unutdurmaq, Ermənistan lehinə yeni qərarlar qəbul etmək və Azərbaycanın işğal altında olan torpaqlarını qurtarmaq təşəbbüsünə mane olmaq idi. Lakin Təhlükəsizlik Şurasında təmsil olunan Qoşulmama Hərəkatına üzv olan 7 dövlət – İndoneziya, Niger, Vyetnam, Tunis, Cənubi Afrika, Dominikan Respublikası, Sent Vinsent və Qrenadin – layihəyə Təhlükəsizlik Şurasının məlum qətnamələrinə istinadın daxil edilməsinin vacibliyini təklif etdilər. Həmsədr ölkələr bunun qəbul edilməz olduğunu bildirsələr də, Qoşulmama Hərəkatına üzv olan dövlətlərin təkidli və prinsipial mövqeyi nəticəsində bu bəyanat geri götürüldü (5).

Göründüyü kimi, BMT TŞ daimi üzvlərinin sabit qalması bu qurumun yalnız siyasi maraqlara xidmət etdiyini, beynəlxalq hüququn icraçısı deyil, pozucusu olduğunu göstərir. Həmsədr ölkələr tərəfsizliyi bir tərəfə ataraq, əvvəllər olduğu kimi, yenidən tərəf tutmağa davam etdilər və Ermənistanı açıq şəkildə dəstəklədilər. Qoşulmama Hərəkatına üzv olan dövlətlər isə beynəlxalq hüququ dəstəkləyərək hərəkatın prinsip və dəyərlərinə sadiq qaldıqlarını bütün dünyaya nümayiş etdirdilər. Bu, eyni zamanda Qoşulmama Hərəkatının beynəlxalq münasibətlər sistemində ciddi bir faktor olduğunun da bariz nümunəsidir.

Azərbaycan müharibədə və diplomatiyada sonuna qədər öz haqlı mübarizəsinə davam etdi və ortaya çıxan fürsətləri öz lehinə çevirməyə çalışdı. Bu yolda uğurlu addımlar da atıldı. Prezident İlham Əliyevin tələbi istiqamətində müəyyənləşdirilən təqvim çərçivəsində Ermənistan 10 noyabr tarixinə qədər işğal etdiyi torpaqlardan çıxmamaqda müqavimət göstərdi və hər dəfə ağır itkilərə məruz qaldı. Noyabrın 8-də isə 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşa azad edildikdən dərhal sonra – noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı. Şuşanın işğaldan azad edilməsi Ermənistanı tamamilə tərksilah etdi, onun bütün manevr imkanları çökdü, ölkə və dünya ictimaiyyətini aldatmaq taktikası mənasını itirdi. Ermənistanın kapitulyasiya etməkdən başqa çıxış yolu qalmadı. Noyabrın 10-da Azərbaycan, Rusiya prezidentləri və Ermənistanın Baş naziri birgə bəyanat imzaladılar. Ermənistan 2020-ci ilin noyabr ayından dekabrın 1-nə qədər mərhələli şəkildə Azərbaycanın işğal altında olan Ağdam, Kəlbəcər və Laçın rayonlarından qoşunlarını çıxaracağı barədə öhdəlik götürdü (7). Bəyanatda Rusiya Silahlı Qüvvələri sülhməramlı statusda məhdud kontingentlə əraziyə yerləşdirilməsi nəzərdə tutulurdu. Bundan sonra Rusiya silahlı qüvvələri sülhməramlı statusda dərhal Qarabağa yerləşdirildi. Lakin gəldikləri tarixdən etibarən qanuni missiyalarından kənara çıxaraq erməni meyilli fəaliyyət göstərmələri Azərbaycanda ciddi reaksiyaya səbəb olmaqdadır.

Atəşkəs anlaşmasından 2 ay sonra, 11 yanvar 2021-ci ildə Rusiya Federasiyasının Prezidenti Putin, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Moskvada həm Qarabağ məsələsini, həm də digər zəruri məsələləri müzakirə etmək üçün bir araya gələrək müştərək bəyanat imzaladılar. Bu bəyanat 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatın daha da dəqiqləşdirilməsi baxımından son dərəcə böyük əhəmiyyət daşısa da, şübhəsiz ki, qeyri-müəyyən nüanslar da diqqət çəkmişdir. Görüşdə tərəflərin Baş nazirlərin müavinləri səviyyəsində üçtərəfli işçi qrupunun və ekspertlərdən ibarət alt işçi qrupların yaradılması ilə nəqliyyat infrastrukturunun və bölgə iqtisadiyyatının inkişafı üçün konkret planların təqdim edilməsi qərarlaşdırılmışdır. Görüşlərin məzmunu bloklanmış vəziyyətdə olan iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsindən ibarətdir. Eyni zamanda Azərbaycan Ermənistan ərazisindən keçən nəqliyyat kommunikasiyaları vasitəsilə Naxçıvan Muxtar Respublikası ilə əlaqə imkanına, Ermənistan da Azərbaycan ərazisindən keçməklə Rusiyaya, İrana dəmiryolu çıxışı imkanına malik olacaq. Həmçinin Azərbaycan Naxçıvan Muxtar Respublikası ərazisindən keçməklə Türkiyə bazarına çıxış əldə edəcək, Türkiyənin və Rusiyanın dəmiryolu arteriyaları da birləşəcək. Bəyanatda diqqət çəkən nüanslardan biri də Qarabağın statusu məsələsinə toxunulmamasıdır. Ümumiyyətlə, Azərbaycan tərəfini tam mənası ilə rahatlaşdıran nüanslar çox olmasa da, narahat edən nüanslar da çox deyil. 11 yanvar tarixli görüşün ən önəmli nəticələrindən biri də ATƏT-in Minsk Qrubunun münaqişənin nizamlanması istiqamətində yeritdiyi fəaliyyətin faktiki olaraq öz qüvvəsini itirməsi oldu (1; 8). Əlbəttə ki, hadisələrin bundan sonra necə inkişaf edəcəyini əlahəzrət Zaman özü göstərəcək. Dəyiş-

məyən bir həqiqət var ki, bölgədə yeni geosiyasi reallıqlar yaransa da, Rusiya ənənəvi siyasətindən əl çəkmək niyyətində deyil. Məhz belə bir vəziyyətdə Azərbaycan da öz dövlət maraqlarından çıxış edərək strategiyasını müəyyənləşdirir.

Heç təsadüfi deyildir ki, 15 iyun 2021-ci il tarixi Azərbaycan tarixinə ən əlamətdar gün kimi düşdü. Azərbaycan üçün mənəvi əhəmiyyət kəsb edən Şuşa şəhərində Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında bəyannamə imzalandı və bu bəyannamənin imzalanması şübhəsiz ki, gələcək dərsliklərə yazılacaq mühüm tarixi hadisə kimi yaddaşlarımıza həkk olundu. Şuşa bəyannaməsinin məhz Azərbaycan xalqının Qurtuluş günü – 15 iyun tarixinə və Qarabağ, Zəngəzur üçün çox vacib sayılan Qars müqaviləsinin 100-cü ildönümünə təsadüf etməsinin də xüsusi rəmzi mənası var. Əlbəttə ki, 1921-ci il tarixli Qars müqaviləsi Türkiyə ilə Azərbaycan arasındakı strateji yaxınlığın bariz bir nümunəsi olmuşdur. Bu strateji yaxınlıq müasir dövrdə özünün pik nöqtəsinə çatmışdır. Heç təsadüfi deyildir ki, Qars müqaviləsinə bağlılıq 15 iyun 2021-ci il tarixdə Azərbaycanla Türkiyə arasında imzalanmış olan “Şuşa bəyannaməsi”nin giriş qismində də bəyan edilmiş və həmin bəyannamədə müştərək maraqlara əsaslanan regional və beynəlxalq strateji mövzulardakı fəaliyyətlərin qarşılıqlı koordinasiyasının vacibliyi vurğulanmışdır. Tərəflərin bütün önəmli məsələlərdə beynəlxalq və regional təşkilatlar çərçivəsində müxtəlif platformlarda bir-birilərini tam dəstəkləyəcəklərinə dair niyyət bəyanı ilə tək millət – iki dövlət ruhu həmin tarixi sənəddə öz əksini tapmışdır. Şuşa bəyannaməsində Qafqaz çərçivəsində bölgəyə dair dəyərləndirmələrlə birlikdə türk dünyası ifadəsi bir çox yerdə qeyd olunmuşdur. Şuşa türk dünyasının tarixi-mədəniyyət beşiyi olaraq xarakterizə olunmuş, türk dünyasının inkişafına yönəlik qarşılıqlı fəaliyyətlərin regional və beynəlxalq səviyyədə inkişaf etdirilməsi üçün cəhdlərin birləşdirilməsi, türk mədəni irsinin beynəlxalq səviyyədə tanıtdırılması və təşviqi sahəsində fəaliyyətin intensivləşdirilməsi, türk həmrəyliyinin daha da möhkəmləndirilməsi məqsədilə Türk Dilli Dövlətlərin Əməkdaşlıq Şurası (Türk Şurası), Beynəlxalq Türk Akademiyası, Türk Mədəniyyəti və İrsi Fondu, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) və Türkdilli Ölkələrin Parlament Assambleyası (TÜRKPA) çərçivəsində gerçəkləşdirilən fəaliyyətlərin sürətləndirilməsi prioritet hədəflər arasında göstərilmişdir (2). Bu bəyannamənin əsas mahiyyəti ondan ibarətdir ki, Türkiyə və Azərbaycan öz aralarında ilk dəfə olaraq adında “müttəfiqlik” ifadəsinin olduğu bir sənəd imzaladılar. Vaxtilə imzalanan anlaşmalar və atılan addımlarla strateji ortaqlıq səviyyəsinə yüksələn əlaqələr Şuşa bəyannaməsi ilə bu dəfə müttəfiqlik səviyyəsinə qalxmış oldu. Qeyd edilməsi son dərəcə vacib olan məsələ budur ki, müttəfiqliyin dar çərçivədə xarakterizə olunmayıb, daha geniş mənada bütün regionu əhatə etməsi, xüsusilə türk dünyası ifadəsinin vurğulanması bu bəyannamənin gələcəyə işıq tutan olduqca strateji bir sənəd olduğunu ortaya qoyur. Gəlinən nəticə bundan ibarətdir ki, Azərbaycanla Türkiyə arasındakı yaxınlıq sadəcə dil, din və mədəni əlaqələrdən ibarət olmayıb, qardaşlıqdan strateji ortaqlığa, strateji ortaqlıqdan da müttəfiqliyə yüksəlmişdir ki, bu da regional sülh və əməkdaşlığın təminatı mənasına gəlir.

Bundan başqa, Azərbaycanın Türkiyə ilə yanaşı Pakistanla da strateji əməkdaşlığı var. Heç təsadüfi deyildir ki, 27 iyul 2021-ci il tarixdə hər üç dövlət arasında imzalanan "Bakı Bəyannaməsi" tərəf ölkələrinin hər birinin "milli və təhlükəsizlik" maraqlarına uyğundur və burada söhbət təkcə bir ölkənin ərazi bütövlüyündən getmir. Bu Bəyannamə üç dövlətin gələcəkdə də həm parlament, qanunvericilik səviyyəsində, diplomatik münasibətlərdə, həm də ölkələrin iqtisadiyyatının inkişafında, əhalinin yaşayış tərzinin yaxşılaşdırılmasında imkanların birləşdirməsini və strateji tərəfdaşlığın daha da sürətlə inkişaf etdirilməsini nəzərdə tutur. Bu, eyni zamanda işğalçı dövlətlərə qarşı mesaj xarakteri daşıyır ki, regional sülhün qorunmasına xidmət edir.

***Nəticə***

Ümumiyyətlə, beynəlxalq siyasətdəki real vəziyyət təhlil edilərkən belə bir məqam ortaya çıxır: hansısa davranış və ya hərəkət fövqəl güclərin xeyrinə və ya zərərinədirsə, onun beynəlxalq hüquqa uyğun olub-olmaması arxa plana keçir və həmin güclər özlərinə sərf edən müvafiq addımı atırlar. Cənubi Qafqazdakı problemlərə, xüsusilə Qarabağ məsələsinə də eyni kontekstdə yanaşmaq lazım gəlir. Hadisələrin təhlili onu deməyə əsas verir ki, lap əvvəldən "Qarabağ məsələsi"nin tam həlli Rusiyanın maraqlarına uyğun deyil. Çünki rəsmi Moskvanın əsas niyyəti problemdən yararlanaraq, hər iki ölkənin beynəlxalq fəaliyyətini və regional siyasətini öz təsiri altında saxlamaqdır. Rusiyanın qərbyönümlü siyasət yeridən Paşinyanı qəbul etməməsi son dərəcə normal hesab edilə bilər. Lakin Rusiya Qafqaz siyasətini hökumətlərə görə deyil, öz geostrateji maraqlarına görə müəyyənləşdirir. Bəzi yeni müstəqil dövlətlərdə olduğu kimi, Cənubi Qafqaz respublikalarındakı mövcud ziddiyyətlərin və münaqişəli halların birdəfəlik həll edilməsi, regionda əbədi sülhün bərqərar olması Rusiyanın regional təhlükəsizlik siyasətinin uzunmüddətli məqsədlərinə qətiyyən cavab vermir. Odur ki, Rusiya həm Ermənistana, həm də Azərbaycana təsir göstərmək üçün ciddi mexanizmlərə sahibdir. Bununla yanaşı, Rusiya Cənubi Qafqaz uğrunda Qərblə apardığı rəqabətdə regional varlığını gücləndirmiş oldu və bölgədə geosiyasi üstünlük əldə etdi. Eyni zamanda Rusiya ermənilərə Qərbə meyil etmənin ağır bədəlini də göstərmiş oldu. Digər tərəfdən, rəsmi Moskvanın öz ağırlığını qoyaraq müharibəni nəticələndirməsi Minsk Qrubunun həmsədrlərindən Fransa və ABŞ-ın bu mərhələdə oyundan kənar qalmasına da yol açdı. 10 noyabr 2020-ci il tarixli anlaşmadan sonra Rusiya öz silahlı qüvvələrini sülhməramlı statusda dərhal Qarabağa yerləşdirdi. Lakin gəldikləri tarixdən etibarən qanuni missiyalarından kənara çıxaraq erməni meyilli fəaliyyət göstərmələri Azərbaycanda ciddi reaksiyaya səbəb olmaqdadır. Gəlinən nəticə bundan ibarətdir ki, müharibə döyüş meydanında Azərbaycanın tarixi qələbəsi ilə başa çatsa da, siyasi, diplomatik və informativ müstəvidə hələ də davam edir. Bundan sonra Azərbaycan gedişata uyğun olaraq hər həmləyə qarşı yeni bir strategiya müəyyənləşdirməlidir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Araz Aslanlı. "Moskva görüşünün nəticəsi: rahatlıq da var, narahatlıq da". https://ayna.az/news/23152

2. Aslanlı Araz. Şuşa beyannamesi bölgesel barış ve işbirliğinin teminatı. https://www.aa.com.tr/tr/analiz/susa-beyannamesi-bolgesel-baris-ve-is-birliginin-teminati/2280430?fbclid=IwAR0IHcaCOljQ7YEX8LVzK_vyfcfGk2IfRbzj0ERXsd2jluyTmJJqVCv8oWc
3. Azərbaycan, Rusiya və Ermənistanın XİN başçıları bəyanat qəbul ediblər. https://report.az/dagliq-qarabag-munaqishesi/azerbaycan-ve-ermenistan-xin-bascilarinin-ucterefli-gorusu-basa-catdi/
4. Azərbaycan və Ermənistan humanitar atəşkəs barədə razılığa gəldi. https://modern.az/az/news/260857
5. Elçin Əhmədov. "Azərbaycanın diplomatik, hərbi uğurları və böyük güclərin ermənipərəst siyasəti". http://newtimes.az/az/organisations/6883/
6. Ermənistan-Azərbaycan arasında daimi atəşkəs yalnız BMT qətnamələrinin şərtləri daxilində mümkündür. https://fed.az/az/qarabag/turkiye-xin-ermenistan-azerbaycan-arasinda-daimi-ateskes-yalniz-bmt-qetnamelerinin-sertleri-daxilinde-mumkundur-91600
7. İlham Əliyev xalqa müraciət edib. https://president.az/articles/45924
8. Kürşat Zorlu. "Karabağ zirvesinin en önemli neticesi ne oldu?" https://www.haberturk.com/yazarlar/prof-dr-kursad-zorlu/2934124-karabag-zirvesinin-en-onemli-neticesi-ne-oldu
9. Quluzadə Vəfa. Gələcəyin üfüqləri (Azərbaycan Respublikasının xarici siyasəti barədə mülahizələr, müsahibələr, şərhlər). Bakı: Azərbaycan nəşriyyatı, 1999, 288 s.
10. Mehmet Koçak. "Ermeni saldırılarının arkasında kimler var?" https:/hyetert.org/2020/07/29/ermeni-saldirilarinin-arkasinda-kimler-var/.
11. Pompeo Azərbaycan ve Ermənistan Xarici İşlər nazirləri ilə görüşdü. www.amerikaninsesi.org/a/pompeo-azərbaycan-və-ermənistan-xarici-işlər-nazirləri-ilə-görüşüb/5633126.html
12. "Rusya'ya karşı gelenlerin toprak bütünlüğü ihlal ediliyor – Gürcistan, Ukrayna, Moldova…" – Aleksandr Dugin. https://yenicag.info/rusyaya-karsi-gelenlerin-toprak-butunlugu-ihlal-ediliyor-gurcistan-ukrayna-moldova-aleksandr-dugin/embed
13. Suinbay Suyundikov. "Ermeni saldırılarının arka planı ve Türk Dünyası". https://www.21yyte.org/tr/fikir-tanki/ermeni-saldirisinin-arka-plani-ve-turk-dunyasi


**Emin Shixaliev**

## POSITION OF RUSSIAN FEDERATION IN THE SECOND KARABAKH WAR


***Summary***

*For nearly 30 years, the unresolved Armenian-Azerbaijani conflict has left Nagorno-Karabakh in limbo over its future. Even though the initiatives of the OSCE's Minsk Group somehow accelerated the attempts to find a solution, 26 years of peace negotiations did not meet the expectations and yielded no results. One of the most important elements that led to the problem remaining unsolved has been the Russian factor. The Nagorno-Karabakh conflict between Armenia and Azerbaijan was of special importance for Russia in terms of its geopolitical priorities and interests. Russia has supported Armenia for a long time. However, the real duty of Russia as one of the co-chairs of the Minsk Group is to work towards establishing a permanent and equitable peace between the two countries. One point worth mentioning here is that Russia, as one of the co-chairs of the OSCE's Minsk Group, has once more indicated that*

*it holds the keys to the solution by positioning itself in the orbit of the conflict. Surely, continuing occupation of 20% of the Azerbaijani lands by Armenia was increasing the likelihood of getting a new war. Another provocative activity of Armenia caused a sudden war. Considering itself as the implementer of Russia's geopolitical interests in South Caucasia and hoping that it would always find support, Armenia violated the border line. Armenian Prime Minister Nikol Pashinyan's extremely confident official statement, "Karabakh is Armenia, period," which contradicted international law, and the wrong steps he took with the desire for a new adventure, were the harbingers of the strategic situation Azerbaijan anticipated. As a result, Azerbaijan liberated its occupied lands based on its right to self-defence.*

***Keywords:*** *The Second Karabakh war, Russian Federation, geopolitical attacks, Armenia, Azerbaijan, Shusha Declaration.*

**Эмин Шихалиев**

**РОЛЬ И ПОЗИЦИЯ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ ВО ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ**

***Резюме***

*Неурегулированный армяно-азербайджанский конфликт вокруг Нагорного Карабаха остается неразрешенным уже почти 30 лет. Хотя усилия по урегулированию вопроса были активизированы по инициативе Минской группы ОБСЕ, тем не менее, 26 лет мирных переговоров не оправдали ожиданий и оказались бесплодными.*

*Главным фактором, повлиявшим на невозможность урегулирования конфликта, стал российский фактор. Армяно-азербайджанский нагорно-карабахский конфликт имел особое значение с точки зрения геополитических приоритетов и интересов России.*

*Россия давно стремилась дестабилизировать ситуацию на Южном Кавказе и в Азербайджане и косвенно поддерживала Армению. Однако, как один из сопредседателей Минской группы ОБСЕ, ее главной задачей было обеспечение прочного и справедливого мира между конфликтующими сторонами. Важно отметить, что Россия, как один из сопредседателей Минской группы ОБСЕ, заявила, что она держит "ключ" к решению проблемы, вовлекая себя в орбиту конфликта. Несомненно, продолжающаяся оккупация Арменией 20% азербайджанских земель, увеличила вероятность войны. Очередные провокационные действия Армении спровоцировали внезапную вспышку войны. Армения, которая видит себя исполнителем геополитических интересов России на Южном Кавказе и надеясь на дальнейшую поддержку, нарушила линию соприкосновения вооруженных сил. Следует особо отметить, что самодовольное и противоречивое официальное заявление премьер-министра Армении Никола Пашиняна "Карабах – это Армения и точка" и его ошибочные шаги с новой авантюрой предвещали ожидаемый стратегический момент для Азербайджана. В результате 44-дневной освободительной войны Азербайджан освободил свои оккупированные территории на основе международного права на самооборону. В статье анализируется роль и позиция Российской Федерации во Второй Карабахской войне.*

***Ключевые слова:*** *Вторая Карабахская война, Российская Федерация, геополитические атаки, Армения, Азербайджан, Шушинская декларация.*

Daxilolma tarixi: 07.09.2021
Çapa qəbul edilmişdir: 10.11.2021